TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri
______ E.M.Ağayev
"16" iyun 2019-cu il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**DAMOTU TİNKTURASI**
LEONURI TINCTURA

**Tərkibi**
*Təsiredici maddə:* 1 flakonda 25 ml damotu tinkturası (tinctura herbae Leonuri) (1:5) (ekstragent: 70%-li etanol) vardır.

**Təsviri**
Yaşılımtıl qonur rəngli, zəif ətir qoxulu mayedir. Saxlanma dövründə çöküntünün yaranması mümkündür.

**Farmakoterapevtik qrupu**
Yuxugətirici və sedativ vasitə.
**ATC kodu:** N05CM.

**Farmakoloji xüsusiyyətləri**
***Farmakodinamikası***
Təsir xarakterinə görə damotu tinkturası pişikotu preparatlarına bənzərdir. Sakitləşdirici effekti tormozlanma prosesinin güclənməsinə və ya mərkəzi sinir sistemində oyanma proseslərinin zəifləməsi hesabına baş verir. Yuxugətirici təsir göstərmir, lakin fizioloji yuxunun gəlməsini yüngülləşdirir və onu dərinləşdirir. Vərdişolma, psixi asılılıq yaratmır.
***Farmakokinetikası***
Öyrənilməyib.

**İstifadəsinə göstərişlər**
Ürək-damar sisteminin fəaliyyətinin funksional pozulmaları (hipertonik tip üzrə neyrosirkulyator distoniya), arterial hipertenziyanın ilkin mərhələsi, eləcə də, yüksəlmiş emosional oyanıqlıq, qıcıqlanma, yuxunun pozulmasının yüngül formaları.

**Əks göstərişlər**
Preparatın istənilən komponentinə qarşı yüksək həssaslıq.

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**
Preparatın tərkibində etanol vardır. Preparatı uzun müddət istifadə etmək olmaz.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Damotu tinkturası sedativ, yuxugətirici, analgetik, antihipertenziv preparatların və ürək qlikozidlərinin effektini, eləcə də, alkoqolun təsirini gücləndirə bilər.

İstənilən digər dərman vasitələrilə eyni vaxtda qəbulu zamanı həkimə məlumat vermək lazımdır.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**

Preparatın tərkibində etanol olduğu üçün tinkturanı hamiləlik və laktasiya dövründə istifadə etmək olmaz.

**Pediatriyada istifadəsi**

Preparatın tərkibinə etanol daxil olduğu üçün onun 12 yaşa qədər uşaqlarda istifadəsi məsləhət görülmür.

**Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**

Damotu tinkturasının qəbulu zamanı nəqliyyat vasitəsini və digər potensial təhlükəli mexanizmləri idarə etməkdən çəkinmək lazımdır.

**İstifadə qaydası və dozası**

Damotu tinkturası yeməkdən sonra daxilə qəbul edilir.

Həkim digər müalicə sxemi təyin etmədikdə, böyüklərə gündə 3-4 dəfə 30-50- damcı stabil müalicəvi effekt əldə edilənə qədər istifadə etmək məsləhət görülür. 12 yaşdan yuxarı uşaqlara hər yaşa 1 damcı hesabı ilə sutkada 3-4 dəfə təyin edilir.

Müalicə kursu hər bir pasiyentə patoloji prosesin xarakterindən, ağırlıq dərəcəsindən, xəstəliyin gedişinin xüsusiyyətindən, preparata qarşı dözümlüyündən və əldə edilən müalicəvi effektin stabilliyindən asılı olaraq fərdi müəyyən edilir.

**Əlavə təsirləri**

Yüksək həssaslıq zamanı yerli allergik reaksiyaların (o cümlədən, dərinin qızarması və ödem, səpgi, qaşınma), eləcə də, başgicəllənmə, yuxululuq, yorğunluq hissi, əqli və fiziki iş qabiliyyətinin azalması mümkündür.

**Doza həddinin aşılması**

Məsləhət görülən doza həddi aşıldıqda, başgicəllənmə, yuxululuq, arterial təzyiqin enməsi müşahidə edilə bilər. Doza həddinin aşılması halında preparatın qəbulunu dayandırmaq və dərhal simptomatik tədbirlər və dəstəkləyici terapiya (pasiyentin klinik vəziyyətinə uyğun olaraq) tətbiq etmək lazımdır.

Preparata qarşı yüksək həssaslığın inkişafı mümkündür.

**Buraxılış forması**

25 ml məhlul, damcıladıcısı olan şüşə flakonda.

**Saxlanma şəraiti**

25°C-dən yüksək olmayan temperaturda, orijinal qablaşdırmada və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**

4 il.

Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**

Reseptsiz buraxılır.

**İstehsalçı/Ərizəçi**

"Ternofarm" MMC.

**Ünvan**
Ukrayna, Ternopol ş., Fabriçnaya k., 4.
Tel.:/Faks: +38 (0352) 521-444.
www.ternopharm.com.ua